RAHİB AĞAMƏMMƏDLİ

# DƏNİZDƏKİ BALACA

QANUN NƏŞRİYYATI

*"Dənizdəki balaca" insan ruhunun dərinliklərinə enən, sevgi, itki, peşmanlıq və özünü anlama mövzularını təsirli şəkildə birləşdirən psixoloji-fəlsəfi romandır. Əsərin mərkəzində duran Yasin obrazı vasitəsilə oxucu həyatın görünməyən tərəfləri ilə qarşılaşır: anlaşılmayan hisslər, yarım qalmış münasibətlər və insanın öz daxilində apardığı səssiz mübarizə.*

*Dəniz sahilində baş verən təsadüfi qarşılaşma – kiçik bir oğlanla edilən söhbət – sadə bir dialoqdan çıxaraq dərin mənalar daşıyan bir yolçuluğa çevrilir. "Balaca" obrazı yalnız bir uşaq deyil; o, bəlkə də, Yasinin vicdanı, keçmişi və ya hələ dərk edə bilmədiyi həqiqətlərin təcəssümüdür. Bu dialoqlar vasitəsilə oxucu qəhrəmanın keçmişinə, sevgisinə, etdiyi fədakarlıqlara və içində gizlətdiyi ağrılara şahid olur.*

*Romanda sevgi romantik bir ideal kimi yox, insanı dəyişdirən, bəzən isə sındıran qüvvə kimi təqdim olunur. Yasin sevdiyi insan üçün özündən keçsə də, nəticədə xoşbəxtlikdən çox boşluq və suallar qazanır. Bu isə oxucunu düşündürür: sevgi insanı tamamlayır, yoxsa onu parçalayır?*

*"Dənizdəki balaca" yalnız bir sevgi hekayəsi deyil. Bu əsər insanın özünü axtarışının, daxili sarsıntılarının və qəbul olunmayan reallıqların hekayəsidir. Hər bir oxucu bu romanda özündən bir iz tapa bilər – bir xatirə, bir hiss, ya da heç vaxt deyilməmiş bir söz.*

*Bu roman sizə xatırladacaq: bəzən ən böyük həqiqətlər ən sadə suallarda gizlənir.*

## *Toz dənəcikləri və insanlar*

Fikrə dalmışdım ki, birdən əsən bərk külək dənizin sahilindəki qum dənəciklərini üstümə sovuraraq üzümə vurdu. O an özümü saxlaya bilməyib qəhqəhə çəkərək gülməyə başladım. Gözləmədiyim bu anda qulağıma qəribə bir səs gəldi. Bu səs daha çox kiçik bir uşağın səsinə oxşayırdı. Tez arxaya baxdım. Məndən çox az məsafədə olan kiçik oğlan mənə yaxınlaşaraq təəccüblə baxmağa başladı. Gözlərini mənə zilləmişdi. Əynində köhnə, amma çox xoş görünən və səliqəli paltarı vardı. Ona tam olaraq yaş verməyi bacarmasam da, haradasa beş-altı yaşı olduğuna əmin idim – ya da ən azı elə düşünürdüm. Əynindəki mavi paltarı ilə kiçik oğlan dənizdən demək olar ki, fərqlənmirdi. Diqqətlə baxdıqda açıq-maviyə çalan gözləri də diqqətimdən qaçmadı. Mənə bir az daha yaxınlaşaraq belə dedi:

– Qəribədi, nəyə gülürdün?

Ona cavab vermək istəmirdim. Amma kiçik bir uşağın sualını cavabsız qoyacaq qəlbə sahib biri deyildim. Kimləsə danışmağı və suallara cavab verməyi çoxdan buraxmışdım. Danışmağın nə mənası vardı ki, danışdıqlarını kimsə anlamayandan sonra... Sözlərin bütün dəyəri insanlar tərəfindən aşağı salınmağa başlamışdı. Artıq insanlar sözləri ya bir-birilərinə işləri düşəndə, ya da aralarında

problem olanda təhqir və alçaltma məqsədi ilə işlətməyə başlamışdılar. Ona görə insanlarla danışmağı çoxdan buraxmışdım. Amma bu kiçik oğlanın sualı elə həvəs və ciddiyyətlə vermişdi ki, cavab vermək istəməsəm də, içimdəki bir səs onun məni anlayacağını deyirdi. Kiçik oğlan ikinci dəfə eyni sualı verdikdə bir az özümü toplayaraq ona cavab verdim:

– Əsən bərk külək qum dənəciklərini mən fikrə getdiyim an üzümə vurduqda mənə bir şeyi xatırlatdı.

Kiçik oğlan tez:

– Nəyi xatırlatdı? – deyə soruşdu.

Mən də ona:

– İnsanları... İnsanları xatırlatdı, – dedim.

Kiçik oğlan daha da təəccüblə baxaraq:

– İzah et, tam anlamadım, – dedi.

Mən yenə gülərək dedim:

– Nə vaxt çətinliyə düşsəm, ya da pis bir an yaşasam… yox, bunlar sadəcə bəhanədir. Olanların və olacaqların fərqi yoxdur. İnsanlar elədikləri hər şeyi nə vaxtsa, eyni bu küləyin qum dənəciklərini üzümə vurduğu kimi, üzümə çırpırlar. Bu yadıma düşdü. Ona görə gülməyə başladım.

Heç gözləməzdim, amma kiçik oğlan da bu sözlərimdən sonra gülməyə başladı. Çox keçmədən mənə:

– Çox qəribəsən, – dedi.

Ona:

– Hə, balaca… – dedim.

Onun adını belə bilmirdim. Başqa nə deyə bilərdim ki? Amma "balaca" dediyim an, içimdən soyuq bir titrətmə keçdi. Gözlərim istər-istəməz doldu. Balaca mənə baxaraq:

– “Balaca” deyəndə niyə gözün doldu? – deyə soruşdu.

Mən də ona bir az acıqlı şəkildə:

– Sənin də bu sualların bitmir! – deyib doluxsundum. Düzü, onu qırmaq istəməzdim. Sadəcə bu mənim üçün çox ağır bir mövzu idi. Bəlkə də, ən həssas yerlərimdən biri. Və bu kiçik oğlan istəmədən bu yerimə toxunmuşdu. Kiçik oğlan mənə:

– Otur, sakitləş, – dedi.

Yavaşca əlimdən tutaraq sahildən bir az aralıda, qayaların yaxınlığına çəkdi. Özü də oturaraq:

– Otur, – dedi.

İkimiz bir müddət sadəcə susaraq qayalıqda oturub dənizə baxdıq. Hərdən mən balacaya baxaraq onun da mənim kimi biri olduğunu düşünməyə başlamışdım. Ona asta səslə dedim:

– Sənə danışacam hər şeyi... Ən əvvəldən. Qəlbimin ən dərinliklərindən, tam səmimi sözlərlə..

## *Lənət, yoxsa tale*

Balaca, bu yaşam boyu hər birimizin həyatında elə sözlər olur ki, başqalarının bizə dedikləri, ömür boyu, ya da uzun müddət beynimizdə təkrarlanır. Belə sözləri hər kəs ən azı bir dəfə eşidir. Çox zaman bu sözlər ən çox dəyər verdiyimiz insanlardan gəlir. Mənim də beynimdə durmadan təkrarlanan bir söz var. Sözlərlə izah edə bilməyəcəyim hisslər yaradır. Bu hisslərin mənfi, yoxsa müsbət olduğuna qərar verə bilmirəm. Çünki heç birinə tam aid deyil. Bax, balaca... bu sözləri sənə oxuyacam. Diqqətlə

dinlə. O qədər də uzun olmayan, amma çox uzaqda qalmış bir vaxtda... mənə uzaq olsa da, eyni zamanda, bir nəfəs qədər yaxın olan bu sözləri indi dilə gətirəcəm. Mən roman oxumuşdum – Cek London "Martin Eden". Orada sənə demişdim ki, bir oğlan çox varlı ailədəki qızı sevirdi və ona görə oxumağa başladı. Özünü ona layiq etdi. Sonra onlar birlikdə oldular, amma oğlan dedi ki, yazıçı olmaq istəyir. Qız onun tərəfində durmadı. Dedi ki, bu çətindir, səndə alınmaz. Qızın anası da istəmədi. Onlar ayrıldılar. Neçə il. Oğlan özünü mükəmməlləşdirdi və oldu. Ən tanınmış yazıçı idi. Pulu vardı. Hər kəs onu tanıyırdı. Qız qayıtdı və dedi ki, onu sevir. Amma oğlan artıq sevmirdi. Biliyi vardı, pulu vardı, tanınırdı... amma xoşbəxt deyildi.

Axırda özünü dənizə atdı və çətinliklə boğuldu".

Oğlan sözünü bitirəndə balaca dedi:

– Çox kədərlidir, – sonra düşündü və əlavə etdi. – Amma o oğlan səhv edib.

Oğlan təəccüblə baxdı:

– Amma o sevirdi axı.

Balaca düşündü:

– Qız ki, həqiqətən, sevmirdi...

Oğlan bu sözə cavab tapmadı. Bir az duruxdu.

Balaca isə onun halını görüb dedi:

– Kiminsə onu sevməsi üçün özünü dəyişmək əvəzinə yazmağa davam etsəydi, bir gün onu, həqiqətən, sevən biri tapılardı.

Özünü yandırmaq sevgi deyil. Sevgi özünü qorumaqdır.

O qız onu heç vaxt tanımayıb. Amma, bəlkə, bir başqa qız onun kitablarını oxuyar və başa düşərdi.

O niyə ona çatmağa çalışdı ki? O artıq daha böyük idi, amma bunu özü də bilmədi.

Oğlan balacaya baxdı:

– Çox ağıllısan, amma bilmədiyin çox şey var, balaca. Sevgi kənardan göründüyü kimi asan deyil.

Məntiqlə qərar verə bilməyəcəyin, özündən çox qarşındakını düşündüyün vəziyyətlər olur. Sevgi yanmaq deyil, amma bəzən qəlbi ağrı ilə yandırır.

Balaca:

– Ola bilər... indi isə mənə bu hekayənin ardında duran öz hekayəni danış. Sözlərinə fikir verirəm, onları digərlərindən fərqli istifadə edirsən. Deyəsən, yazarsan. Oğlan artıq balacanın ağıllı sözlərinə təəccüblənmirdi. Ona öyrəşmişdi.

Gah dənizə, gah balacaya baxaraq, bir az da utanaraq danışmağa başladı:

– Bu sözləri mənə Sofi demişdi. Çox əvvəllər.

Bilirəm, indi sən deyəcəksən ki, mən niyə indi onunla deyiləm. Ona görə sual vermədən cavab verim.

Bir zamanlar, həqiqətən, çox dəyər verdiyim biri idi. Sadəcə, bəzən istədiyimiz kimi olmur.

Böyük sevgilər böyük fədakarlıqlar tələb edir. O bunu mənə demişdi. O da kitabları çox sevərdi, bəlkə, məndən də çox.

Bir gün mənə bu sözləri dedi. Təəccübləndim. Çünki o da məni sevirdi. Niyə birdən belə desin ki?

Bəlkə, həqiqətən, sevmirdi, bilmirəm. Amma pis biri deyildi, ya da bəlkə, elə idi.

Mən ondan daha pisəm, bəlkə də, bunu dəqiq deyə bilmərəm.

Məcbur səbəblərdən yollarımızı ayırmalı olduq. Daha doğrusu, mən ayırmalı oldum.

Balaca əsəblə soruşdu:

– Niyə? Sevirsənsə, niyə?

Oğlan:

– Bayaq dedim axı bəzi sevgilər fədakarlıq tələb edir. Yollarımız ayrılmasa, onun üçün yaxşı olmazdı.

Sonda ona yalanlar dedim. Amma hamısı onun yaxşılığı üçün idi.

Ona sevmədiyimi dedim. Amma kaş ki gerçəyi deyə biləydim.

Yenə də onun yaxşılığı üçün ən doğru qərar – onu məsələyə qatmadan həll etmək idi.

Gerçəyi bilmək haqqı ola bilərdi... amma ona ziyan gəlməsin deyə bu ağır yükü tək qaldırdım.

O, hələ də bilmir.

İllər sonra ani bir qərarla kitab yazdım və yazar oldum. Kitabda onunla bağlı heç nə yox idi. Ondan ilham almamışdım.

Bəzən oturub düşünürəm, bəlkə, mən bu dünya üçün deyiləm. Çünki yaşaya bilmirəm.

Demək olar ki, heç nəyi qəbul edə bilmirəm. İnsanları və onların mənə etdiklərini.

Hamı istəyir ki, qəbul edim, daha yaxşı yaşadığımı görsünlər. Amma edə bilmirəm.

Bir insanın digərinə etdiyi pisliyi heç vaxt anlaya bilmirəm.

Həyatım o qədər də pis deyil, əslində. Başıma gələn hər şeyə baxmayaraq, dəfələrlə cəhd edib uğurlu biri olmaq yolunda addım atıram.